MAYKL ZANTOVSKİ

# HAVEL

## BİR HƏYATIN HEKAYƏTİ

İngilis dilindən tərcümə edən:
Sevinc Rahmanova

QANUN NƏŞRİYYATI

MICHAEL ZANTOVSKY

# HAVEL

## A LIFE

Kitab əvvəlcə siyasi təfriqəçiyə çevrilmiş, daha sonra könülsüz olaraq prezident seçilmiş, beynəlxalq aləmdə uğur qazanmış dramaturq Vaslav Havelin həyat hekayətindən bəhs edir. Məxməri İnqilab və müasir Çex Respublikasındakı başlıca rolu Haveli XX əsrin əsas simalarından birinə çevirib.

Kitabı ilk prezidentliyi dövründə onun mətbuat katibi, nitq yazarı, tərcüməçisi və silahdaşı olan Maykl Zantovski qələmə alıb. Havelin qeyri-adi həyatının şahidinə çevrilən Zantovski onun həyat və fəaliyyətindəki ən sirli məqamları aydınlığa qovuşdurub.

**Michael Zantovsky HAVEL – A LIFE**
**Maykl Zantovski HAVEL – BİR HƏYATIN HEKAYƏTİ**
Bakı, Qanun Nəşriyyatı, 2023, 648 səh.

Ölçü: 130x200 mm
Qapaq: yumşaq
Çapa imzalandı:13.03.2023

İngilis dilindən
tərümə edən: Sevinc Rahmanova
Redaktor: Günel Natiq
Korrektor: Ayxan Ayvaz, Ülviyyə Emin
Texniki redaktor: Aygül Yelmarlı
Mətn dizaynı: Pərvanə Şahin
Qapaq dizaynı: Rafail Qasım

Qanun Nəşriyyatı
Bakı, AZ 1102, Tbilisi pros., 76
Tel: (+994 12) 431-16-62; 431-38-18
Mobil: (+994 55) 212 42 37
e-mail: info@qanun.az
www.qanun.az
www.fb.com/Qanunpublishing
www.instagram.com/Qanunpublishing

ISBN 978-9952-38-558-8

© Qanun nəşriyyatı, 2023
Copyright © Michael Žantovsky, 2014

Bu kitabın Azərbaycan dillinə tərcümə və yayım hüquqları "Qanun Nəşriyyatı"na məxsusdur. Kitabın təkrar və hissə-hissə nəşri "Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında" Azərbaycan Respublikasının Qanununa ziddir.

*David, Ester, Conas və Rebeka üçün*

*Bütün ömrüm boyu inanmışam ki, edilmiş bir şeyi artıq heç nə dəyişə bilməz və bu, həqiqətdir ki, hər şey həmişəlik qalır. Sözün qısası, Varlığın bir yaddaşı var. Beləliklə, hətta əhəmiyyətsiz birisi – burjua uşağı, laboratoriya assistenti, əsgər, səhnə işçisi, dramaturq, müxalif, məhbus, prezident, təqaüdçü, ictimai fenomen və tərki-dünya, qəhrəman elan edilmiş daxilən təşvişli mən belə burada daim var olacağam, bəlkə də, burada yox, amma haradasa mütləq. Amma yox, hər halda, başqa yerdə. Buralarda bir yerdə.*

***Vaslav Havel "Qalaya və Geriyə"***

# MÜNDƏRİCAT

PROLOQ ........ 11
18 DEKABR 2011-Cİ İL, QARANLIQ SOYUQ BİR GÜN ........ 19
ŞANSLI DOĞULUŞ ........ 27
SƏNƏTÇİNİN GƏNCLİK İLLƏRİNİN PORTRETİ ........ 39
GÜMÜŞ KÜLƏK ........ 47
YAXŞI ƏSGƏR HAVEL ........ 59
OLQA ........ 68
ŞAGİRD ........ 77
BAĞ QONAQLIĞI ........ 83
ALTMIŞINCI İLLƏR ........ 97
ÖZƏL SİYASƏT MƏKTƏBİ ........ 108
MEMORANDUM ........ 115
TOPLANTI FIRTINASI ........ 122
RÜSVAYÇILIQ DÖVRÜ ........ 144
DAĞ HOTELİ ........ 158
ÇƏLLƏKLƏRİ YUVARLAYIN ........ 174
DİLƏNÇİNİN OPERASI ........ 183
BU, SADƏCƏ ROK-N-ROLLDUR ........ 199
XARTİYA ........ 211
YANLIŞ ........ 232
BAQQALLARIN ÜSYANI ........ 244
İMPERİYA İNTİQAM ALIR ........ 258
MƏHKƏMƏ ........ 265
ƏZİZ OLQA ........ 272

NƏHAYƏT AZADLIQ...................................................................304
AXMAQLIĞIN MƏDHİYYƏSİ ...................................................330
VENÇESLAS MEYDANI UĞRUNDA DÖYÜŞ ..............................347
MƏXMƏR SÖHBƏTİ ...................................................................358
İNQILAB DUMANI .......................................................................376
QALAYA GEDƏN YOL...............................................................392
UCUZ HOTEL OTAĞI ..................................................................402
ROK-N-ROLL PREZİDENTİ ........................................................414
ƏVVƏLCƏ MANHETTENİ FƏTH ETDİK....................................443
SONRA İSƏ KREMLİ FƏTH EDƏRİK .........................................453
XARİCDƏKİ GÜNAHSIZLAR.......................................................465
BALIQ DÜZƏLTMƏK ..................................................................487
ÇEXOSLOVAKİYANIN SONU .......................................................499
ÜMİD İÇİNDƏ GÖZLƏMƏK.........................................................524
QƏRARSIZLIQ ALOVU ...............................................................531
MÜTTƏFİQ AXTARIŞINDA .........................................................539
AVROPAYA DÖNÜŞ....................................................................556
YINQ VƏ YANQ ..........................................................................562
YAŞAM VƏ ÖLÜM ARASINDA....................................................569
PİS ƏHVAL..................................................................................583
SİLAHLARA ƏLVİDA...................................................................598
ŞƏRTİ AZADLIQDA ....................................................................615
TƏRK ETMƏ...............................................................................629
TƏŞƏKKÜRLƏR .........................................................................641
SEÇİLMİŞ ƏDƏBİYYAT ...............................................................643

# PROLOQ

Kiçik bir ağac meşəsi kitab yazma fikrinin qurbanı olmazdan öncə ən azı qeyri-şərtsiz olaraq üç sual soruşulmalıdır və ən azı şərti olaraq bu suallara cavab verilməlidir. Mövzu müəllifdən başqa kiməsə maraqlıdırmı? Bu mövzunu maraqla qarşılayan başqa kimlərsə olubmu? Müəllif bu mövzu haqqında yazmaq üçün düzgün şəxsdirmi?

Vaslav Havel keçən əsrin ən möhtəşəm siyasətçilərindən biri idi. Onun varlıdan kasıba, sonra isə kasıbdan varlıya çevrildiyi bu həyat hekayəti sadə formada təsvir edilə bilər, amma şübhəsiz ki, o, gəlmiş-keçmiş bütün utopiyaları kölgədə qoyaraq böyük rol oynadı və yaxın tarixin ən dramatik ictimai dəyişimlərindən birini istiqamətləndirdi.

Əlbəttə ki, bir çox insan Havelin özü də daxil olmaqla onun birdən-birə nağılvari şəkildə ölkənin ən böyük vəzifəsinə yüksəlməsindən riqqətə gəlirdi. Əslində isə, bunda möcüzəvi və ya təsadüfi heç nə yox idi. Bu kitabın göstərməyi hədəflədiyi kimi, "dünyanı düzəltmək" fikri Haveldə çox əvvəllərdən formalaşmışdı. Hələ on yaşında ikən o, mal deyil, "yaxşılıq" istehsal edəcək fabrik xəyalları qururdu. Hər şeyə qarşı həddən artıq məsuliyyətli olmaq onu ayağa qalxıb çətinliklərə sinə gərməyə sövq etdi. Sənaye və həqiqi nizam-intizamdakı real həqiqətləri dəyişməyi qarşısına məqsəd qoyması 1989-cu ilin noyabrında Haveli inqilabın ən çox ehtimal olunan deyil, yeganə lideri etdi.

Buna baxmayaraq, Havel haqqında sıradan bir müxalif və ya siyasətçi kimi kiçik çərçivədə düşünmək olmaz. O, düşündüklərinin nəticəsini, eyni zamanda siyasətdə praktiki iştirakına əsaslanan mənəvi qaydaları həyata tətbiq edən nəhəng bir mütəfəkkir idi. Kimlərsə onun düşüncələrinin uzun zaman boyunca işə yaradığını sual altında qoya bilər. Yaxşı oxumasına baxmayaraq, onun rəsmi təhsili, dərin elmi bilikləri, həqiqi alimlərə xas sistemli nizam-intizamı kifayət qədər deyildi. Oxucularına və dinləyicilərinə bunları tez-tez xatırlatmağı sevmirdi. Mənəvi fəlsəfəsi onun adı ilə ayrılmaz şəkildə bağlı olan üç amillə çərçivələnə bilər. Birincisi, həm də onun tanınmış essesinin başlığı olan "gücsüzlərin gücü" sadəliyi ilə şüara bənzəyir. Möhtəşəm səslənsə də, ilk baxışdan bu fikir gücün güclülərdə olduğu gündəlik fəaliyyətlərin bir çoxu ilə üst-üstə düşmür. Paradoksal olaraq gücsüzlər qəflətən güc qazansalar, bunu qəbul etmələri daha çətin olur. Beləliklə bu məfhum tarixdə qurbanları olmayan yeganə inqilabda silinməz məna buraxdı. İkincisi, "reallıqla yaşamaq" isə sanki Məsih izi daşıyır və öz müəllifini olmayacaq bir şeyin arxasınca qaçmağa, riyakarlıq və daha pisinə sövq edir. "Həqiqət"in ən sadə izahında Havel özü də bəzən öz nəzəriyyəsinə zidd gedir, buna baxmayaraq çox az adam onun bacardığı qədər ümidləri doğrultmağa olan qətiyyətində nöqsan tapa bilər. "Məsuliyyət" anlayışı onun "varlıq yaddaşında" kök salıb və bu üçlüyü tamamlayır. Necə deyərlər, yerdə qalanlar isə sadəcə söhbətdir. Havel özündən sonra nə müfəssəl bir iş, nə də rəsmi fəlsəfi sistem qoydu. Xüsusilə prezidentliyi dövrünə aid bəzi metafiziki düşüncələrində o, yenilik və pop fəlsəfəsinin hüdudlarından kənarda təhlükəli şəkildə balanslaşırdı. Əksəriyyət üçün onun düşüncələrində büllur kimi mənəvi aydınlıq və ardıcıllıq var.

Təfriqəçi, siyasətçi və mütəfəkkir kimliyi ilə yanaşı, Havel hazırcavab və orijinal yazıçı idi. Onun bu sahədəki uğuru ictimai sta-